www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-12 (1773) 30 iyun 2023-cü il



## ATU-da Buraxılış Dövlət İmtahanları uğurla başa çatıb

**Dövlət Attestasiya Komissiyasının fakültələr üzrə sədrləri Böyük Elmi Şurada hesabat verib**

səh. 3

### ATU-da Ümummilli Lider Heydər Əliyevin xatirəsi anılıb

səh. 2

### London Brompton Hospitalının professoru universitetimizdə olub

səh. 3

### ATU-nun rektoru Dövlət Attestasiya imtahanlarını izləyib

səh. 3



### Azərbaycan səhiyyəsi: şərəfli və çətinliklərlə dolu 105 il

Tibb İşçilərinin Peşə Bayramı Günü münasibətilə tədbir keçirilib

səh. 2

### Dünyadakı Azərbaycanlı Təbiblərin Simpoziumu keçirilib

*ATU-nun rektoru, professor Gəray Gəraybəyli çıxışında bildirib ki, universitetdə 3 yeni kafedra yaradılıb*

səh. 2

### Düşmənə təslim olmayıb, şəhidliyi seçən komandir

*Tibb xidməti kapitanı Anar Məmmədov hərbi həkim olmaq üçün universitetdə öz ixtisasını dəyişmişdi*

səh. 6



### İctimai Nəzarət və Məsləhət Şurasının üzvləri imtahan prosesini müşahidə ediblər

Millət vəkili İlham Məmmədov: Azərbaycan Tibb Universitetində tədrisin keyfiyyəti çox yaxşılaşıb

səh. 4

# Azərbaycan səhiyyəsi: şərəfli və çətinliklərlə dolu 105 il

## Tibb İşçilərinin Peşə Bayramı Günü münasibətilə tədbir keçirilib



**Ümummilli Lider Heydər Əliyevin 2001-ci il iyunun 4-də imzaladığı sərəncama əsasən, hər il iyunun 17-si ölkəmizdə Tibb İşçilərinin Peşə Bayramı Günü kimi qeyd olunur.**

Bununla əlaqədar olaraq iyunun 17-də səhiyyə naziri Teymur Musayev, Milli Onkologiya Mərkəzinin baş direktoru, akademik Cəmil Əliyev, Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini, nazir vəzifələrini icra edən Samiq Sadıxov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev, Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli, Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İcraçı direktoru Vüqar Qurbanov, habelə tibb ictimaiyyətinin nümayəndələri Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirələrini ehtiramla yad edib, məzarları önünə gül dəstələri qoyublar.

Daha sonra İkinci Fəxri xiyabanda Vətən müharibəsi şəhidlərinin məzarları ziyarət edilib. Ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş tibb işçilərinin əziz xatirəsi anılaraq, məzarları üzərinə tər güllər düzülüb. Həmçinin Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla yad edilib.

Tibb İşçilərinin Peşə Bayramına həsr edilmiş genişləndirilmiş kollegiya iclasında səhiyyə naziri bildirib ki, bu bayram Azərbaycanın tibb ictimaiyyətinə Ümummilli Lider Heydər Əliyevin hədiyyəsidir. Eyni zamanda, Ulu Öndərin Azərbaycan səhiyyəsinə, tibb işçilərinin fəaliyyətinə yüksək qiymət verməsinin göstəricisidir. Bildirilib ki, məhz iyunun 17-də Azərbaycan Xalq Cümhuriyyətinin Səhiyyə Nazirliyi yaradılıb: "105 il ərzində Azərbaycan səhiyyəsi şərəfli və çətinliklərlə dolu bir yol keçib, hər bir tarixi mərhələdə ona həvalə olunmuş missiyanı peşəkarlıqla yerinə yetirib".

Nazir Azərbaycan səhiyyəsinin ötən əsrin 70-ci illərindən sonrakı inkişafının Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu söyləyib: "Bu gün də ölkəmizdə tibb işçilərinə yüksək dəyər verilir. Azərbaycan Prezidenti İlham Əliyevin düşünülmüş siyasəti, gərgin zəhməti sayəsində ölkəmizdə bütün sahələrdə dinamik inkişaf templəri müşahidə edilir. Müasir dövrün tələblərinə uyğun olaraq, milli səhiyyə sistemində mütərəqqi idarəetmə texnologiyalarının tətbiqi, innovativ layihələrin reallaşması, beynəlxalq standartlar əsasında qurulması, yüksək İKT tətbiqlərin istifadəsi ilə səhiyyənin rəqəmsallaşdırılması, uğurlu menecment sisteminin istifadəsi sahəsində müxtəlifyönümlü işlər icra olunur. Heydər Əliyev Fondu və onun rəhbəri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da daima əhalinin sağlamlığının qorunmasına qayğı göstərir. Birinci vitse-prezidentin təşəbbüsü ilə səhiyyənin ən çətin problemlərinin həlli üçün icra edilən proqramlar əhalinin, xüsusən də gənc nəslin sağlamlığının qorunmasında mühüm rol oynayır".

Nazir bildirib ki, son üç ildə Azərbaycan tibb işçiləri iki sınaqdan uğurla çıxıblar. COVID-19 pandemiyası Azərbaycanın səhiyyə sahəsində fövqəladə vəziyyətlərə yüksək hazırlıq səviyyəsini göstərdi. Digər imtahan isə işğal olunmuş ərazilərimizin azad edilməsi üçün 44 günlük Vətən müharibəsində yaralananların həyatı uğrunda savaş idi. Azərbaycanın tibb işçiləri ordusu hər bir yaralının xilası, normal həyata qayıtması uğrunda yüksək əzmkarlıqla şücaət göstərdi.

Tədbir zamanı, həmçinin nazir "Səhiyyə əlaçısı" döş nişanı və Fəxri fərmanla təltif olunanları təbrik edib.

Sonda Ulu Öndər Heydər Əliyevin milli səhiyyənin inkişafındakı rolundan bəhs edən "Sağlam siyasət" sənədli filmi nümayiş olunub.

**15 İyun – Milli Qurtuluş Günü münasibətilə Azərbaycan Tibb Universitetində Ulu Öndər Heydər Əliyevin xatirəsi hörmət və ehtiramla yad edilib. ATU-nun rektoru, professor Gəray Gəraybəyli başda olmaqla, ali məktəbin rəhbər şəxsləri 5 saylı tədris binasında Ümummilli Liderin büstü qarşısına əklil və gül dəstələri düzərək onun xatirəsini yad ediblər.**



# ATU-da Ümummilli Lider Heydər Əliyevin xatirəsi anılıb

## Rektor, professor Gəray Gəraybəyli: "Azərbaycan xalqı 15 iyun tarixini həmişə xatırlayacaq"

Rektor Gəray Gəraybəyli Milli Qurtuluş Gününü böyük ictimai-siyasi və tarixi əhəmiyyətə malik bir gün kimi dəyərləndirib: "1993-cü il iyunun 15-də Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə gəlişi Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmləndirilməsində və inkişafında müstəsna rol oynayıb. Bu hadisə, həmçinin Azərbaycan səhiyyəsi və tibb təhsili qarşısında da yeni imkanların açılmasına şərait yaradıb. Belə ki, respublikanın bütün bölgələrində yeni tibb müəssisələri istifadəyə verilib, maddi-texniki baza yaxşılaşdırılıb, o cümlədən Azərbaycan Tibb Universitetinin yeni tədris binasının, unikal akt zalının və bir sıra digər tibb obyektlərinin açılışı olub. 1996-cı ildə Azərbaycan Tibb Universiteti Amerika və Avropa Təhsil Birliyinin beynəlxalq reyestrinə daxil edilib. Tibb alimlərinə, həkimlərə, bütün səhiyyə işçilərinə xüsusi qayğı ilə yanaşan Ulu Öndər Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra iki dəfə - 1998 və 2000-ci illərdə Azərbaycan Tibb Universitetində olub".

Onun sözlərinə görə, 44 günlük Vətən müharibəsində qazandığımız şərəfli qələbədə mühüm rol oynayan hərbi həkimlərin yetişdirilməsinə imkan verən Hərbi tibb fakültəsi də məhz Ümummilli Liderin 25 may 2000-ci il tarixli Fərmanına uyğun olaraq yaradılıb.

Rektor qeyd edib ki, müstəqillik dövrü təqviminə Milli Qurtuluş Günü kimi daxil olmuş bu bayram Azərbaycan xalqının çağdaş ictimai-siyasi həyatında və milli taleyində ən önəmli və unudulmaz tarixlərdən biridir: "Əminliklə deyə bilərik ki, Milli Qurtuluş Gününün tarixi əhəmiyyəti və dəyəri zaman keçdikcə daha da aydın dərk olunacaq. İllər ötsə belə, Azərbaycan xalqı 15 iyun tarixini qürur və şərəf günü kimi qəbul edəcək, o tarixi bizlərə yaşadan Ulu Öndəri hörmət və ehtiramla xatırlayacaq".

# Dünyadakı Azərbaycanlı Təbiblərin Simpoziumu keçirilib

## ATU-nun rektoru, professor Gəray Gəraybəyli çıxışında bildirib ki, universitetdə 3 yeni kafedra yaradılıb





**Heydər Əliyev Mərkəzində Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunan Dünyadakı Azərbaycanlı Təbiblərin Simpoziumunun açılış mərasimi keçirilib. Mərasimdə Azərbaycan Respublikasının səhiyyə qurumlarının rəhbərləri, nazirlər, xaricdə yaşayan və çalışan həkimlər, Azərbaycanda fəaliyyət göstərən beynəlxalq təşkilatların və səfirliklərin nümayəndələri, tanınmış həkimlər, özəl və dövlət tibb müəssisələrinin rəhbərləri və digərləri iştirak ediblər.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin simpozium iştirakçılarına müraciətini Prezident Administrasiyasının Humanitar siyasət, diaspora, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva səsləndirib.

Tədbirdə çıxış edən səhiyyə naziri Teymur Musayev belə böyük miqyaslı tədbirin keçirilməsinin və müstəqil Azərbaycan səhiyyəsinin memarı Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmasının önəmini vurğulayıb: "17 İyun – Tibb İşçilərinin Peşə Bayramı Günü bizim üçün ikiqat əhəmiyyət kəsb edir. Çünki bu peşə bayramı bir tərəfdən cəmiyyətin tibb işçilərinin əməyinə verdiyi yüksək qiymətin ifadəsidirsə, digər tərəfdən Azərbaycanın tibb ictimaiyyətinə şəxsən Ulu Öndər Heydər Əliyevin hədiyyəsidir. Dünyadakı Azərbaycanlı Təbiblərin Simpozimunun gündəliyi də həm elmi, həm də mədəni baxımdan zəngindir. Simpoziumun respublikamızda və ondan kənarda çalışan tibb mütəxəssisləri arasında peşəkar münasibətlərin gücləndirilməsinə, tibbin müxtəlif sahələri üzrə təcrübə mübadiləsinə, həmvətənlərimiz arasında həmrəylik mühitinin inkişafına töhfələr verəcəyinə əminəm".

Daha sonra çıxış edən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri Zaur Əliyev səhiyyənin yeni maliyyələşmə mexanizmi olan icbari tibbi sığortanın ölkə üzrə tətbiqinin əhalinin tibbi xidmətlərə çıxışını asanlaşdırdığını, vətəndaşların səhiyyə sistemindən məmnunluğu səviyyəsini artırdığını söyləyib.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İcraçı direktoru Vüqar Qurbanov son illərdə tibb sahəsində görülən işlərlə bağlı ətraflı məlumat verib. Koronavirus pandemiyası ilə mübarizə tədbirləri çərçivəsində, Vətən müharibəsində və günümüzdə icbari tibbi sığorta çərçivəsində tibbi xidmətin yüksək səviyyədə qurulması ilə bağlı geniş çıxış edib.

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli peşəkar kadrların hazırlanması məqsədilə universitetdə 3 yeni kafedra yaradıldığını bildirib: "ATU-da mövcud olan Ailə təbabəti kafedrası yenidən qurulub. O cümlədən dar ixtisaslaşma kursu götürülüb. Məsələn, Cərrahi xəstəliklər kafedrasını misal göstərmək olar. Həmçinin yaxın aylarda universitetin Elektron Kitabxanasının istifadəyə verilməsi nəzərdə tutulur".

Simpoziumda Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, elm və təhsil naziri Emin Əmrullayev, Diaspora İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov çıxış edərək dünyanın müxtəlif ölkələrində çalışan həkimlərlə yanaşı, Azərbaycanda fəaliyyət göstərən həkimləri bir araya gətirən belə böyük miqyaslı bir tədbirin keçirilməsinin əhəmiyyətindən bəhs ediblər.

Almaniyanın Haydelberq Universitetinin Manhaym Tibb fakültəsinin Cərrahiyyə klinikasının həkimi, cərrah-onkoloq, t.ü.f.d, dosent Vüqar Yaqublu isə Azərbaycanda səhiyyə sahəsində əldə olunan uğurlardan və azərbaycanlı həmkarları ilə təcrübə mübadiləsi imkanı qazandıqlarından məmnunluğunu dilə gətirib.

İstanbul Liv Hospitalının Beynəlxalq Xəstə xidmətləri qrupunun həkimi Tural Xaspolad dünyada tibb sahəsində gedən müasir yanaşmalar və tendensiyaların təqdim olunduğu simpozimun iştirakçısı olduğu üçün təşkilatçılara təşəkkürünü bildirib.

Dünyadakı Azərbaycanlı Təbiblərin Simpozimunun təntənəli açılış mərasimi daha sonra bədii hissə ilə davam edib.

5 gün ərzində keçirilən simpoziumda dünyanın 13 ölkəsində - Türkiyə, Rusiya, Almaniya, Amerika Birləşmiş Ştatları, Küveyt, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, İtaliya, Kanada, Qırğızıstan, Gürcüstan və Rumıniyada çalışan azərbaycanlı həkim-mütəxəssislər iştirak ediblər.

# Tanınmış türkiyəli alim Ulu Öndərlə bağlı xatirələrini bölüşüb

**Türkiyənin tanınmış plastik cərrahlarından olan professor İbrahim Yıldırım Azərbaycan Tibb Universitetində olub, professor Gəray Gəraybəyli ilə görüşüb.**

Səmimi şəraitdə keçən görüşdə ATU-nun Tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev qonaq haqqında məlumat verərək, onun Azərbaycan səhiyyəsinin inkişafı üçün gördüyü işlərdən danışıb. Ulu Öndər Heydər Əliyevlə dəfələrlə görüşən İ.Yıldırımın Azərbaycandan tibbi kadrların ilk mübadilə təşəbbüsünün müəllifi olduğu qeyd edilib.

Həmçinin qonağa ATU-dakı tədris prosesi, yeniliklər haqqında ətraflı məlumat verilib. Qeyd olunub ki, professor Gəray Gəraybəylinin universitetə rəhbərlik etdiyi 8 il ərzində ATU-da önəmli islahatlar aparılıb, proqramlar yenilənib, tələbələrin rahatlığı üçün bir çox işlər görülüb.



O cümlədən universitetin beynəlxalq əlaqələri əhəmiyyətli dərəcədə genişlənib, tədris proqramlarımız beynəlxalq akkreditasiyadan keçib. Bu proses günün tələblərinə uyğun olaraq hazırda da davam etdirilir.

Universitetin hazırkı fəaliyyəti haqda məlumatları razılıqla qarşılayan professor İbrahim Yıldırım Ulu Öndərlə bağlı xatirələrindən danışıb. O, Azərbaycan səhiyyəsinin inkişafına sevindiyini, daim gənclərə dəstək olduğunu ifadə edib.

Rektor Gəray Gəraybəyli İbrahim Yıldırımın ATU-nun ilk Fəxri doktorlarından biri olduğunu vurğulayaraq, görkəmli professorla həmsöhbət olmaqdan məmnunluğunu diqqətə çatdırıb.

Sonda qonağa xatirə hədiyyəsi təqdim edilib.

# London Brompton Hospitalının professoru ATU-da olub



**London Brompton Hospitalının əməkdaşı, kardioloq, professor Cemil İzgi Azərbaycan Tibb Universitetinin qonağı olub, rektor, professor Gəray Gəraybəyli ilə görüşüb.**

Görüşdə ATU-nun rektoru Azərbaycanda səhiyyə və tibb təhsili sahəsinə dövlət səviyyəsində nümayiş etdirilən qayğıdan söz açıb. Son illər ölkəmizdə müasir xəstəxanaların inşa edildiyini, tibb müəssisələrində əhaliyə yüksək keyfiyyətli xidmətlər göstərildiyini diqqətə çatdırıb. Tibb təhsili alan gənclərin xarici ölkələrin klinikalarında mütəxəssislərin yanında təcrübə keçməsinin böyük əhəmiyyət daşıdığını vurğulayan rektor G.Gəraybəyli, bu məsələdə professor Cemil İzginin çalışdığı London Brompton Hospitalının imkanlarından yararlanmağın faydalı olacağını qeyd edib.

Professor C.İzgi görüş zamanı fəaliyyət göstərdiyi xəstəxana haqqında məlumat verib. O, "Azərbaycan CMR" - Ürək MR kurslarında məruzəçi qismində iştirak etdiyini, azərbaycanlı həkim və rezidentlər qarşısında çıxış etməkdən məmnun olduğunu bildirib.

Qeyd edək ki, ATU-nun müəllimi, Mərkəzi Klinikanın həkim-kardioloqu, professor Firdovsi İbrahimovun təşəbbüsü ilə təşkil olunan kurslara 60 kardioloq, 20 rezident qatılıb.

ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov, Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayevin də iştirak etdiyi görüşdə azərbaycanlı kardioloqların, o cümlədən ATU-nun tələbə və rezidentlərinin London Brompton Hospitalında müştərək elmi araşdırmalar aparması məsələsi müzakirə edilib.



# ATU-nun rektoru Dövlət Attestasiya imtahanlarını izləyib

**Azərbaycan Tibb Universitetində Yekun Dövlət Attestasiyası prosesi başa çatıb.**

Universitetin rektoru, professor Gəray Gəraybəyli iyunun 21-də Müalicə-profilaktika fakültələrinin buraxılış kurs tələbələri üçün keçirilən imtahanları izləyib. Rektor tələbələrlə söhbət edərək, onların fikir və təkliflərini dinləyib. İmtahandan uğurla çıxan tələbələri təbrik edib, onlara müvəffəqiyyət arzulayıb.

İmtahan prosesinə ATU-nun prorektor heyəti də nəzarət edib.

# ATU-da Buraxılış Dövlət İmtahanları uğurla başa çatıb

## Dövlət Attestasiya Komissiyasının fakültələr üzrə sədrləri Böyük Elmi Şurada hesabat verib

**İyunun 25-də Azərbaycan Tibb Universitetinin Böyük Elmi Şurası 2022/2023-cü tədris ilində sonuncu iclasını keçirib. Tədbiri giriş nitqi ilə açan ATU-nun rektoru, professor Gəray Gəraybəyli toplantı iştirakçılarını 26 İyun – Silahlı Qüvvələr Günü və Qurban bayramı münasibətilə təbrik edib. 44 günlük Vətən müharibəsində torpaqlarımızı şanlı Zəfərlə işğaldan azad edən Milli Ordumuzun ötən dövrdə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin apardığı siyasət nəticəsində daha da gücləndiyini nəzərə çatdırıb.**

Rektor bildirib ki, yaxın günlərdə Azərbaycanın tibb ictimaiyyətinə ağır itki üz verib. Belə ki, ATU-nun II Uşaq xəstəlikləri kafedrasının professoru Amaliya Əyyubova və I Uşaq xəstəlikləri kafedrasının müdiri, professor Səfixan Həsənov dünyasını dəyişiblər.

Şura üzvləri ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olmuş qəhrəmanlarımızın və hər iki alimin xatirəsini bir dəqiqəlik sükutla yad etdikdən sonra rektor gündəlikdə duran məsələləri diqqətə çatdırıb. O, əlavə edib ki, artıq Buraxılış Dövlət İmtahanları sona çatıb və bu tədris ili üzrə Dövlət Attestasiya Komissiyası da öz işini başa vurub. Dövlət Attestasiya Komissiyasının fakültələr üzrə sədrləri və üzvləri Buraxılış Dövlət İmtahanları zamanı apardıqları işin nəticələri haqqında hesabat vermək üçün Böyük Elmi Şuranın iclasına dəvət olunublar.

Bundan sonra komissiyanın fakültələr üzrə sədrlərinin hesabatları dinlənilib və gənc mütəxəssislərin hazırlanması işinin yaxşılaşdırılmasında universitet kollektivinin vəzifələri müzakirə olunub. Dövlət Attestasiya Komissiyasının I Müalicə-profilaktika fakültəsi üzrə sədri - Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun direktoru, t.e.d., professor Cəmilə Qurbanova, II Müalicə-profilaktika fakültəsi üzrə sədr - Milli Onkologiya Mərkəzinin baş direktorunun müavini, t.e.d. Fuad Quliyev, İctimai səhiyyə fakültəsi üzrə sədr - Milli Onkologiya Mərkəzinin baş direktorunun elmi işlər üzrə müavini, t.ü.e.d., professor Murad Məmmədov, Stomatologiya fakültəsi üzrə sədr - Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Stomatologiya və üz-çənə cərrahiyyəsi kafedrasının dosenti, t.ü.f.d. Lalə



Quliyeva, Əczaçılıq fakültəsində bakalavr mərhələsi üzrə sədr – "Zeytun pharmaceuticals" məhdud məsuliyyətli cəmiyyətin baş mütəxəssisi, b.e.n. Rüstəm Rüstəmbəyov hesabat məruzəsi ilə çıxış ediblər. Bundan başqa, Hərbi tibb fakültəsi üzrə sədr – Milli Müdafiə Universiteti rektorunun tədris işləri üzrə müavini, polkovnik Arzu İsmayılov Buraxılış Dövlət İmtahanları haqqında ətraflı məlumat verib.

Fakültələr üzrə sədrlər hesabat məruzələrində qeyd ediblər ki, bir sıra ixtisaslar üzrə Əczaçılıq fakültəsində buraxılış işinin müdafiəsi, I və II Müalicə-profilaktika, İctimai səhiyyə, Stomatologiya və Hərbi tibb fakültələrində Yekun Dövlət Attestasiyası mövcud Əsasnaməyə uyğun olaraq problemsiz, şəffaf şəkildə aparılıb və burada nəzərdə tutulan qaydalara tam əməl edilib. Bildirilib ki, bu il buraxılış imtahanları əvvəlki illərdə olduğu kimi, yüksək səviyyədə baş tutub və tələbələr obyektivlik şəraitində yüksək bilik nümayiş etdiriblər. İmtahanların rahat və şəffaf aparılması üçün yaradılan şəraitə görə universitetin rəhbərliyinə, şəxsən ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə təşəkkürlərini bildirən Dövlət Attestasiya Komissiyasının fakültələr üzrə sədrləri, eyni zamanda fakültə dekanlarının da imtahan prosesindəki aktiv fəaliyyətlərini yüksək qiymətləndiriblər. Onlar imtahanların gedişi zamanı heç bir neqativ hadisənin, eləcə də heç bir əsassız narazılığın baş vermədiyini diqqətə çatdırıblar.

Hesabat çıxışlarına yekun vuran rektor Gəray Gəraybəyli fakültələr üzrə sədrlərə imtahanları uğurla başa çatdırdıqları üçün minnətdarlığını bildirib.

Bundan sonra universitetin Tədris Departementinin rəhbəri, dosent Kamandar Yaqubovun təqdim etdiyi 2023/2024-cü tədris ili üzrə tədris planı və ATU-nun Elmi katibi, professor Nazim Pənahovun 2023/2024-cü il üzrə təqdim etdiyi iş planı toplantı iştirakçılarının diqqətinə çatdırılıb və gündəliyə çıxarılan hər iki plan Şura üzvləri tərəfindən təsdiqlənib.

Daha sonra gündəlikdə olan digər məsələlərin müzakirəsinə başlanılıb. 2023/2024-cü tədris ilindən etibarən "Xarici tələbələrlə iş üzrə dekanlıq"ın adının dəyişdirilərək "Əcnəbi təhsilalanlarla iş üzrə dekanlıq" adlandırılması təklifinə ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev aydınlıq gətirdikdən sonra Şura üzvləri tərəfindən səsə qoyularaq təsdiq olunub.

Bundan başqa, ATU-da professor-müəllim heyətinin və seçkilərdə iştirak edən universitetdən kənar şəxslərin Tibb və sağlamlıq elmləri təhsili kafedrasında təlim keçməsi, eləcə də universitetin Tərbiyə işləri üzrə prorektoru, dosent Zülfüqar Musabəyovun təqdim etdiyi ATU-nun intizam tənbehlərinin sırasına əlavələrin edilməsi barədə təklifi də Şura tərəfindən təsdiqlənib.




Türkiyə vətəndaşı Cerən Evcen Canbaxışovanın təhsil haqqına müstəsna hal kimi güzəşt olunmasına razılıq verən Elmi Şura, 519A3b qrup tələbəsi, Türkiyə vətəndaşı İlhan Keklik üçün təhsil haqqını ödəmək şərtilə 1 nəfərdən ibarət qrupun açılması müraciətinə də münasibət bildirib.

Müxtəlif məsələlərin müzakirəsini davam etdirən Elmi Şura II Müalicə-profilaktika fakültəsinin ikinci ali təhsil alan II kurs, 221A-14b qrup tələbələrinə yeni tədris ilində "Azərbaycan tarixi" və "Fəlsəfə", eləcə də Stomatologiya fakültəsinin ikinci ali təhsil alan tələbələrinə "Azərbaycan tarixi", "Biofizika" və "Üzvi kimya" fənlərinin ödənişsiz əsaslarla tədris olunmasına səs verib. Əməkdaşların xarici ölkələrə səfərləri zamanı "international.amu.edu.az" saytı üzərindən qeydiyyatın aparılmasına da münasibət bildirən Elmi Şura 2022/2023-cü tədris ilində son iclasını başa çatdırıb.

Toplantıya yekun vuran rektor, professor Gəray Gəraybəyli Dövlət Attestasiya Komissiyasının fakültələr üzrə sədrlərini ATU-nun iyulun 1-də keçiriləcək "Məzun günü"nə dəvət edib və universitetin kollektivinə tətil dövründə xoş, mənalı istirahət arzulayıb.

**M.ƏLƏKBƏRLİ**

# İctimai Nəzarət və Məsləhət Şurasının üzvləri imtahan prosesini müşahidə ediblər

## Millət vəkili İlham Məmmədov: Azərbaycan Tibb Universitetində tədrisin keyfiyyəti çox yaxşılaşıb

**İyunun 22-də Azərbaycan Tibb Universitetinin rektoru yanında İctimai Nəzarət və Məsləhət Şurasının üzvləri universitetdə keçirilən imtahan prosesinin gedişatını izləyiblər.**



Şuranın sədri, millət vəkili, həkim-qastroenteroloq İlham Məmmədov və üzvləri - "İki sahil" qəzetinin redaktoru, əməkdar jurnalist Vüqar Rəhimzadə, ATU-nun Əczaçılığın texnologiyası və idarəçiliyi kafedrasının baş müəllimi, "Gənc vətəndaş" İctimai Birliyinin sədr müavini Aidə Bəndəliyeva və Məsləhət Şurasının tələbə-koordinatoru, I Müalicə-profilaktika fakültəsinin V kurs tələbəsi Orxan Təsivanlı ATU-nun İmtahan Mərkəzinə baxış keçiriblər və burada aparılan imtahanın gedişi ilə maraqlanıblar. Şuranın üzvlərinə imtahan öncəsi və imtahan prosesində tətbiq olunan yeniliklərlə bağlı İmtahan Mərkəzinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Ülkər Cəfərova ətraflı məlumat verib.

İmtahanın gedişində tələbələrin və ekspertlərin fikirlərini də öyrənən şura üzvləri imtahan prosesinin çox rahat keçdiyini müşahidə ediblər. İmtahana nəzarət qrupunun rəhbəri Pəri İsaqova, nəzarətçilərdən Sevinc İbrahimova və başqaları imtahan prosesinin şəffaf keçdiyini, heç bir problemə rast gəlmədiklərini bildiriblər.

Aidə Bəndəliyeva şura üzvləri tərəfindən həm qış, həm də yay sessiyasında mütəmadi olaraq reydlər keçirildiyini, reydin nəticələrinin yerindəcə müzakirə olunduğunu vurğulayıb.

Şuranın üzvləri universitetdə tətbiq olunan yenilikləri müsbət qiymətləndiriblər. Şuranın sədri İlham Məmmədov bildirib ki, cəmiyyətin bütün sahələrində olduğu kimi, təhsildə də ictimai nəzarətin olması mühüm məsələdir: "Bu, şəffaflığın artmasına, obyektivliyin təmin olunmasına şərait yaradır. Komissiya üzvlərinin ümumi rəyi budur ki, Azərbaycan Tibb Universitetində tədrisin keyfiyyəti çox yaxşılaşıb. Biliyin qiymətləndirilməsində dünya standartlarına cavab verən metodologiyadan istifadə olunur. Əsas məqsəd Azərbaycan xalqının sağlamlığı keşiyində duran savadlı həkimlərin yetişdirilməsidir. Təsadüfi deyil ki, imtahanın gedişində nəzəri biliklərin praktikada tətbiqini, laborator-funksional diaqnozun qoyulması üçün təcrübi proseslərin icra mexanizminin necə aparıldığını müşahidə etdik".

Şura üzvləri I kurs magistrlərinin Menecment (səhiyyə sahəsi üzrə) ixtisasından nəzəri, Əczaçılıq fakültəsinin buraxılış kurs tələbələri üçün Toksikoloji kimya fənnindən Dövlət Attestasiyası üzrə bacarıq imtahanlarının gedişini də izləyiblər. Müşahidələr tələbələrin bacarıq imtahanlarına məsuliyyətlə hazırlaşdığını, eyni zamanda onların təcrübi biliklərini nümayiş etdirməsi üçün də hər cür şəraitin yaradıldığını göstərib. Klassik qaydada imtahan verən magistrlərin biliyini tədris hissə müdiri, dosent Kamran Babayev, İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının müdiri, professor Rafiq Çobanov, dosent Məhərrəm Məhərrəmov və assistent Samirə Mirhadi qiymətləndiriblər. Menecment (səhiyyə sahəsi üzrə) ixtisası üzrə kurator Arzu Mehdiyeva hər biletə düşən 5 sualın cavabına görə maksimum 50 bal toplayan magistrlərin II kursda müdafiə edərək magistraturanı bitirəcəklərini deyib.

Dövlət Attestasiyası üzrə bacarıq imtahanlarının gedişi də müsbət qiymətləndirilib. Əczaçılıq toksikologiyası və kimya kafedrasının müdiri, professor Eldar Qarayev, Dövlət Attestasiya Komissiyasının sədri, "Zeytun Pharmaceuticals" Məhdud məsuliyyətli cəmiyyətinin baş mütəxəssisi, biologiya üzrə fəlsəfə doktoru Rüstəm Rüstəmbəyov, komissiyanın üzvü, Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının assistenti Səyyəddin Atakişizadə tələbələrin bacarıq imtahanlarına yaxşı hazırlaşdıqlarını, nəticələrin qənaətbəxş olduğunu söyləyiblər.

Qeyd edək ki, İctimai Nəzarət və Məsləhət Şurası tərəfindən universitetin tədris binalarında rəy qutuları yerləşdirilib. Tələbələrin dərsə münasibəti, dərsin keyfiyyəti, sualların tərtibatında rast gəlinən problemlər, müəllimlərlə tələbələr arasında münasibətlər və digər məsələlərə dair rəy və təkliflər komissiya tərəfindən araşdırılaraq universitet rəhbərliyinə məruzə olunur, mövcud nöqsanların aradan qaldırılması üçün tədbirlər görülür.

**Yenidoğulmuşların Canlandırma Proqramı (NRP-8) çərçivəsində növbəti kurs rezidentlərimiz üçün təşkil olunub. Səhiyyə Nazirliyi, ATU və Liv Bona Dea xəstəxanasının dəstəyi ilə iyunun 20-də keçirilən kurs təlim şəklində aparılıb.**

## NRP təlimləri daha geniş miqyasda təşkil olunacaq

Ümumiyyətlə, bütün dünyada yenidoğulmuşların ölümlərinin və əlilliklərinin qarşısının alınması məqsədilə Yenidoğulmuşların Canlandırma Proqramı təlim şəklində həyata keçirilir. Bu proqramın 2020-ci ildə yenilənmiş ən son versiyası "NRP-8" təlimi iyunun 20-də ilk dəfə Tədris Cərrahiyyə Klinikasında baş tutub.

ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərovun təşəbbüsü ilə təşkil edilən kursun təlimçiləri - uzman dr. Sərxan Elbəyiyev, I Uşaq xəstəlikləri kafedrasının assistenti Sevinc Muxtarova və II Uşaq xəstəlikləri kafedrasının assistenti Kamil Şərifov bu cür təlimlərin daha geniş miqyasda keçiriləcəyini bildiriblər.



# Azərbaycan pediatrlarının qurultayı keçirilib

## Müxtəlif ölkələrdən olan 65-dən çox məruzəçi öz elmi işlini təqdim edib

**İyunun 23-25-də Azərbaycan Pediatrlar Assosiasiyasının Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş 41-ci qurultayı keçirilib. Tədbirin açılış mərasimi ATU-nun Tədris Terapevtik Klinikasında baş tutub.**

Universitetin Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov giriş nitqi ilə çıxış edib. O, ölkə başçısı İlham Əliyevin müvafiq əmrinə əsasən 2023-cü ilin "Heydər Əliyev İli" elan olunduğunu söyləyib: "Təbii ki, Azərbaycan Tibb Universiteti də Ümummilli Liderimizin nəsillərə örnək olan şərəfli ömür yoluna həsr edilmiş silsilə tədbirlər keçirir. ATU və Azərbaycan Pediatrlar Assosiasiyasının (APA) birgə təşkilatçılığı ilə keçirilən bu toplantımız da həmin tədbirlərdən biridir. Hər birimiz yaxşı bilirik ki, Ulu Öndərimiz səhiyyənin, xüsusilə də uşaqların sağlamlığına həmişə diqqət yetirirdi".

Professor R.Bəylərov bildirib ki, uşaq infeksiyalarının tüğyan etdiyi zamanlarda UNICEF-in Azərbaycanla sıx əməkdaşlığı da Ulu Öndərin adı ilə bağlıdır: "Həmin dövrlərdə inkişaf etmiş ölkələrdən Azərbaycana keyfiyyətli peyvəndlər gətirildi və uşaqlar bu bəladan xilas edildi. O zaman biz Dünya Səhiyyə Təşkilatında və UNICEF-də çalışırdıq. Gördük ki, Ulu Öndər qaçqın şəhərciklərinə gələndə ilk növbədə uşaqların sağlamlığı və yeməkləri ilə maraqlanır. Bütün sahələrdə, o cümlədən səhiyyə sektorunda qazanılan uğurlarda Heydər Əliyevin misilsiz xidmətləri vardı. Sevindirici haldır ki, onun ideyaları bu gün möhtərəm Prezidentimiz İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva tərəfindən uğurla həyata keçirilir".



Son bir ayda Azərbaycan pediatriyasına üç ağır itki üz verdiyini də təəssüflə xatırladan prorektor, dünyasını dəyişən professorlar Surxay Musayev, Amaliya Əyyubova və Səfixan Həsənovanın pediatriya sahəsindəki xidmətlərini yüksək qiymətləndirib.

Konqresin proqramında ən aktual mövzuların öz əksini tapdığını vurğulayan prorektor, istər elmi, istərsə də praktik hissədə maraqlı müzakirələrin aparılacağına əminliyini ifadə edib və qurultayın işinə uğurlar arzulayıb.

Bundan sonra tədbir Azərbaycan Pediatrlar Assosiasiyasının sədri, ATU-nun II Uşaq xəstəlikləri kafedrasının dosenti Təranə Tağızadə və həmin kafedranın dosenti Qoşqar İsmayılovun moderatorluğu ilə davam edib.

Tədbirə onlayn qatılan Rusiya Federasiyasının Pediatriya Cəmiyyətinin sədri, akademik Leyla Namazovanın "Tibbi xidmətin keyfiyyəti. Pediatrlar nə edə bilər" mövzusunda məruzəsi dinlənilib. Məruzədə fərqli bölgələrdə aparılan araşdırmaların nəticələri, uşaq ölümlərinin statistikası və bu istiqamətdə pediatrların gördüyü və görə biləcəyi işlər öz əksini tapıb.

Növbəti məruzə ilə çıxış edən dosent Təranə Tağızadə əvvəlcə APA haqqında qısa məlumat verərək, assosiasiyanın 1930-cu ildə professor Əbülfəz Qarayev tərəfindən yaradıldığını, 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra, akademik Adilə Namazovanın sədrliyi dövründə daha güclü fəaliyyət göstərdiyini deyib. Bundan sonra "Müasir tibb təhsilində tibbi bioetikanın rolu"ndan danışan məruzəçi qeyd edib ki, hazırda dünyanın əksər inkişaf etmiş ölkələrində tibbi bioetika üzrə xüsusi kurslar var. Onun sözlərinə görə, 2020-ci ildə akademik Adilə Namazovanın rəhbərliyi altında assosiasiyanın işçi qrupu tibbi bioetikanın tibb təhsilinə inteqrasiya edilməsi barədə Təhsil Nazirliyinə layihə təqdim edib. Azərbaycana dəvət olunmuş beynəlxalq mütəxəssislərin iştirakı ilə müzakirə edilən layihə UNESCO-nun sessiyasında qəbul olunub.

"Tibbi bioetika həkimlə xəstə arasında olan bir münasibətdir. Bunu bir tərəfdən hüquq, bir tərəfdən də etik normalar idarə edir" – deyən məruzəçi, həkimin orta və kiçik tibb işçiləri ilə səmimi ünsiyyət qurmasının vacibliyinə də toxunub. Eyni zamanda xəstələrin hüquqları ilə yanaşı, həkimlərin də hüquqlarının qorunması məsələsində hələ də müəyyən problemlərin mövcud olduğunu diqqətə çatdırıb.

İyunun 25-də qurultay öz işini "Holiday Inn" hotelində davam etdirib. Ulu Öndərin hakimiyyəti dövründə Azərbaycanda pediatriya sahəsinin inkişafı üçün yaradılan imkanlar, uşaqların sağlamlığı ilə bağlı dövlətin qayğısı, bu sahədə görülən tədbirləri əks etdirən sənədli film nümayiş olunub.

Səhiyyə nazirinin müavini İlqar Qasımov çıxış edərək, uşaqların sağlamlığının qorunmasının dövlətimizin qarşısında duran prioritet məsələlərdən olduğunu qeyd edib. O, hələ erkən yaşlarından uşaqların müayinələrinin aparılmasının vacibliyinə toxunub. Nazir müavini həkimlərin pediatriya sahəsində əldə etdikləri nailiyyət və təcrübəni qurultayda bölüşməklə bu sahənin inkişafına öz töhfələrini verəcəklərini vurğulayıb.

Natiqlərdən Ailə, Qadın və Uşaq Problemləri Üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva, millət vəkili Rəşad Mahmudov, ATU-nun II Uşaq xəstəlikləri kafedrasının dosenti, APA-nın prezidenti Təranə Tağızadə ölkəmizdə uşaqlara göstərilən diqqət və qayğıdan geniş söhbət açıblar. T.Tağızadə pediatriya sahəsində müxtəlif problemlər və onların həlli yolları ilə bağlı məruzələrin dinləniləcəyini qeyd edib. Qardaş Türkiyədən də tanınmış mütəxəssislərin iştirak etdiyini və əldə olunan qabaqcıl təcrübənin ölkəmizdə də tətbiq olunacağını nəzərə çatdırıb.

Məlumat üçün bildirək ki, qurultay çərçivəsində 15 elmi paneldə Azərbaycan, ABŞ, Rusiya, Türkiyə, Avropa və Asiya dövlətlərindən ümumilikdə 65-dən çox məruzəçi öz elmi işini təqdim edib. Tədbirdə iştirak etmək üçün 350-ə yaxın pediatr qeydiyyatdan keçmişdi.

**Arif MƏMMƏDLİ**

# Ölkəmizdə səhiyyənin inkişafı daim diqqət mərkəzindədir



**Azərbaycan Tibb Universiteti və Nəsimi rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Tədris Cərrahiyyə Klinikasında Tibb İşçilərinin Peşə Bayramı Günü münasibətilə “Ümummilli lider və milli səhiyyənin inkişafı” mövzusunda tədbir keçirilib. Tədbirdə Nəsimi rayonu ərazisində yerləşən səhiyyə müəssisələrinin rəhbərləri və səhiyyə işçiləri iştirak ediblər.**

Tədbiri giriş sözü ilə açan ATU-nun Tədris Cərrahiyyə Klinikasının baş həkimi Fariz Camalov tədbir iştirakçılarını salamlayaraq bildirib ki, Azərbaycan səhiyyəsi müasir dünya səhiyyəsi standartlarına uyğun kadrlarla, hər cür avadanlıqlarla, yüksək keyfiyyətə malik maddi-texniki baza ilə təmin olunub.

Nəsimi rayon İH başçısı Asif Əsgərov səhiyyə işçilərini peşə bayramı münasibətilə təbrik edib, onlara şərəfli işlərində uğurlar arzulayıb. A.Əsgərov Ümummilli Liderin 2001-ci ildə imzaladığı sərəncamla səhiyyə işçiləri gününün təsis edilməsinin onun həkimlik sənətinə yüksək dəyər verdiyinin göstəricisi olduğunu bildirib. İH başçısı vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə müasir tibb ocaqları tikilir, səhiyyə müəssisələri bərpa olunaraq müasir avadanlıqlarla təmin edilir. Səhiyyə sisteminin inkişafı, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi və infrastrukturun yeniləşdirilməsi daim diqqət mərkəzindədir.

Sonra Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin səhiyyəyə göstərdiyi diqqət və qayğıdan danışıb.

Tədbirin sonunda həkimlərə hədiyyələr və gül dəstələri verilib, konsert proqramı təqdim olunub.

# İmtahan prosesi yüksək səviyyədə davam edir

## Ülkər Cəfərova: Suallar yaxşı tərtib olunduğundan, Apellyasiya Komissiyasına şikayətlər azdır

**Azərbaycan Tibb Universitetində 2022/2023-cü tədris ilinin yaz semestrinin yay imtahan sessiyası başa çatmaq üzrədir. Bu semestr buraxılış kurslardan başqa bütün tələbələr imtahan verirlər. İmtahanların gedişi ilə bağlı məlumat əldə etmək üçün İmtahan Mərkəzində olduq.**

ATU-nun İmtahan Mərkəzinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Ülkər Cəfərovanın bildirdiyinə görə, iyunun 1-dən etibarən universitetdə bütün fakültələrin kursları üzrə imtahan sessiyası başlayıb: “İmtahanın gedişi demək olar ki, qaneedicidir. İmtahanlar başlayan gündən nəzarətçilərimiz tərəfindən tələbələrin üzərindən icazə verilməyən əlavə vasitələr aşkar olunmasa da, bir-birlərindən köçürmə hallarının olduğu müəyyən edilib. Bu səbəbdən bir-birindən köçürən tələbələrlə bağlı tərəfimizdən təqdimat



yazılıb və nəticələri ləğv olunub. Hətta bir neçəsinə töhmət də verilib”.

Ü.Cəfərova testlərin mütəxəssislər tərəfindən hazırlanmasına da toxunub. Bildirib ki, nəzəri fənlərdə testlərin hazırlanması qənaətbəxşdir: “Klinik fənlərdə bir az suallarda dolaşıqlıq olur. Amma bütün kafedralar üzrə ekspertlərə icazə verilir ki, imtahan başlamamışdan 30 dəqiqə qabağadək İmtahan Mərkəzinə gəlib, düzəlişlər edə, dəyişdirə bilsinlər. Bu il suallar yaxşı tərtib olunduğundan, Apellyasiya Komissiyasına şikayətlər də az oldu. Bunu da testləri hazırlayanların öz üzərlərində işləməsi və prosesə daha məsuliyyətlə yanaşması kimi dəyərləndirmək olar”.

İmtahana Nəzarət Qrupunun rəhbəri Pəri İsaqova da imtahan prosesinin gedişindən razıdır: “İmtahanlar öz axarı və qaydasında gedir. Tələbələr arasında qayda pozuntularına yol verənlərin nəticələri ləğv olunub. Cədvəl düzgün tərtib olunduğundan sıxlığa rast gəlmirik. Ona görə də heç bir problemimiz yoxdur. Bir az nəzarətçilərimizdən narazıyam. Onlar arasında imtahan prosesini izləməyə vaxtında gəlməyənlər var. İntizamsızlıqları barədə rəhbərliyə məlumat verilib. Yəqin lazımi ölçü götürüləcək”.

Nəzarətçi Səbinə Əliyeva imtahanlara nəzarətin qrupun rəhbəri P.İsaqova tərəfindən yaxşı təşkil olunduğunu deyib. Tələbələr tərəfindən bəzi qayda pozuntularına yol verilsə də, vaxtında qarşısını ala bildiklərini qeyd edib.

Mühafizəçilərdən Cahangir Eyvazov və Ulduz Xuramova da vəzifələrinin öhdəsindən layiqincə gəlirlər. Bildirirlər ki, bütün tələbələr yoxlamadan keçdikdən sonra imtahan zalına buraxılır. Texniki yazı vasitələrinin, telefon, saat, kibrit qutusu və s. içəri buraxılmasına icazə verilmir.



Bəs imtahan prosesi ilə bağlı tələbələrimiz nə düşünür?

İctimai səhiyyə fakültəsinin 2-ci kurs tələbəsi Nuranə Nəbili Farmakologiya fənnindən imtahan verib. Sevinclidir. Çünki yüksək nəticə əldə edib, 50 bal toplayıb. İmtahanların obyektiv aparılmasından, insan faktorunun müdaxiləsi olmamasından razılığını bildirir.

II Müalicə-profilaktika fakültəsinin 2-ci kurs tələbəsi, Suriya vətəndaşı Tammam Staifi də imtahandan uğurla çıxıb. Farmakologiya fənnindən 46 bal toplayıb. O da çox rahat şəkildə imtahanları verdiyini deyir.

Həmin fakültənin tələbəsi Mürsəl Məmmədov da yaxşı nəticə göstərib. İmtahan verdiyi İctimai səhiyyənin əsasları fənnindən 46 bal toplayıb: “Bu, mənim üçün ən maraqlı fəndir. Sevə-sevə hazırlaşmışdım, nəticəsini gördüm. O biri imtahanlarıma da yaxşı hazırlaşıb, müvəffəqiyyət qazanmışam. Bir imtahanım qalıb. İnanıram ki, onu da verə biləcəm”.

II Müalicə-profilaktika fakültəsinin 2-ci kurs tələbəsi, İran vətəndaşı İlahə Hadi və İctimai səhiyyə fakültəsinin 2-ci kurs tələbəsi Leyla Cavadova da imtahan zalını yüksək əhvalla tərk edənlərdəndir. Onlar imtahanın gedişindən razı qaldıqlarını bildirirlər.

Qeyd edək ki, İmtahan Mərkəzində olduğumuz vaxtda kimsənin imtahanın gedişi ilə bağlı narazılıq etdiyinin şahidi olmadıq. Bu da prosesin düzgün təşkil edilməsi, şəffaflıq və obyektivliyə lazımi səviyyədə riayət olunmasından irəli gəlirdi.

# Alimlərimiz Avropa Uşaq Cərrahları Assosiasiyasının konqresində



**7-10 iyun tarixlərində Avropa Uşaq Cərrahları Assosiasiyasının (EUPSA) Türkiyənin İzmir şəhərində 24-cü konqresi keçirilib.**

“Uşaq cərrahiyyəsinin müxtəlif aspektləri”nə həsr olunmuş konqresdə ölkəmizi Azərbaycan Uşaq Cərrahları Assosiasiyasının sədri, ATU-nun Uşaq cərrahlığı kafedrasının müdiri, professor Ramiz Poluxov və K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru, tibb üzrə fəlsəfə doktoru Lətif Zeyniyev təmsil ediblər. Konqresin keçirildiyi 4 gün ərzində 300-dən çox məruzə müzakirə olub.

Professor R.Poluxovun verdiyi məlumata görə, konqres yüksək səviyyədə keçirilib: “Konqresə tərəfimizdən Azərbaycan Tibb Universitetinin Stavropol Dövlət Tibb Universiteti, Rusiya Tibb Elmləri Akademiyası, Xabarovskda fəaliyyət göstərən Uzaq Şərq Dövlət Tibb Universitetinin uşaq cərrahlığı kafedralarının “Uşaq cərrahiyyəsi sosial mediada” mövzusunda apardığı birgə araşdırma təqdim olundu. Qeyd edim ki, apardığımız araşdırma konqres iştirakçıları tərəfindən maraqla qarşılandı və xeyli diskussiyalara səbəb oldu”.

Nümayəndələrimiz fasilələr zamanı EUPSA prezidenti Amulya Saxena, 24-cü konqresin sədri, Egey Universitetinin professoru Orkan Ergün, Türkiyə Uşaq Cərrahlığı Dərnəyinin katibi, professor Tutku Soyer, Ankara Şəhər Xəstəxanasının baş həkimi, professor Emrah Şenel, həmin xəstəxananın Uşaq yanıq və yara bölümünün rəhbəri, dosent Sabri Demirlə aktual məsələləri müzakirə ediblər: “Önəmli danışıqlarımızdan biri Ankara Şəhər Xəstəxanasının rəhbərliyi ilə razılaşma əldə etməyimiz oldu. Razılaşmaya əsasən, həkimlərimiz elmi-praktik təcrübələrini artırmaq üçün adıçəkilən xəstəxanaya kurslara göndəriləcək, tərəflər arasında elmi-praktik mübadilələr baş tutacaq”.

Pofessor, Asiya ölkələrinin Uşaq Cərrahlığı Assosiyasının 1-ci Konqresinin ötən il Qazaxıstanda keçirildiyini qeyd edib. 2-ci konqresin isə bu ilin sentyabrında Bişkekdə baş tutacağını söyləyib: “Biz bu il keçiriləcək konqresdə Asiya ölkələrinin Uşaq Cərrahlığı Assosiasiyalarının Konfederasiyasını yaratmaq məqsədilə memorandum imzalamaq niyyətindəyik.

Növbəti il isə konqres ölkəmizdə keçirilə bilər. Bunda məqsədimiz Türkiyə və bir sıra Avropa ölkələrini yaradacağımız konfederasiyaya daxil etmək, fəaliyyətimizi genişləndirməkdir”.

# ATU-nun kafedra müdiri Qazaxıstanda çıxış edib



**ATU-nun İctimai fənlər kafedrasının müdiri, professor Qoşqar Əliyev iyunun 13-dən 16-dək Qazaxıstanın Almatı şəhərində TUDAS - türk dövlətlərinin araşdırmaları simpoziumuna qatılıb və “Heydər Əliyev tarixi yaddaş və milli mentalitet haqqında” mövzusunda çıxış edib.**

O, məruzəsində Ulu Öndərin nəsillərə örnək olan həyat yolu, Azərbaycan dövlətinin dünyada öz layiqli yerini tutması istiqamətində göstərdiyi siyasi fəaliyyət barədə simpozium iştirakçılarına geniş məlumat verib. Məruzədə Ulu Öndərin Azərbaycanın tarixinə, mədəniyyətinə, elm və təhsilinə, eləcə də digər sahələrə verdiyi yüksək qiymətdən bəhs edilib. Professor Q.Əliyev məruzəsində qeyd edib ki, Ulu Öndər Heydər Əliyev siyasi dünyagörüşü, zəngin dövlətçilik təcrübəsi ilə Azərbaycan dövlətini və xalqını dövrün ən çətin sınaqlarından çıxararaq, ölkəsinin iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olub. Ümummilli liderimizin dövlətçilik siyasəti sayəsində elm-təhsil, mədəniyyət və səhiyyə sistemi də öz inkişaf yoluna qədəm qoyub. Məruzəçi bildirib ki, ölkəmizdə ictimai-siyasi sabitliyin qorunub saxlanması, eləcə də demokratik dövlət konsepsiyasının uğurla həyata keçirilməsi Heydər Əliyev şəxsiyyətinin və onun siyasi kursunun bütün istiqamətlərdə dövlət müstəqilliyinin möhkəmləndirilməsinə və inkişafına xidmət edir.

Üç gün davam edən tədbirdə professor Q.Əliyev simpoziumun xüsusi sertifikatına layiq görülüb. O, bölüm rəhbəri kimi tədbirdə çıxış edənlərə sertifikatlar verib.

Şəhid məzunlarımız



# Düşmənə təslim olmayıb, şəhidliyi seçən komandir

## Tibb xidməti kapitanı Anar Məmmədov hərbi həkim olmaq üçün universitetdə öz ixtisasını dəyişmişdi

**Tibb xidməti kapitanı Anar Məmmədov əslən Cəbrayıl rayonunun Dağ Tumas kəndindən olsa da, 1984-cü ildə Bakıda doğulmuşdu. Uşaqlıqda yay tətillərində getdiyi ata yurdu, dostları ilə bağlı xatirələr Anarın yaddaşında dərin iz buraxmışdı. Cəbrayıl işğal olunduqdan sonra qohum-əqrəbanın ağır köçkünlük həyatı gözlərinin qabağından heç vaxt çəkilmirdi. Yaşlıların ermənilərin törətdikləri vəhşiliklərlə bağlı söhbətləri, xüsusilə də əmisi oğlanlarının birinci Qarabağ müharibəsində şəhid olmaları Anarda qisas hissini alovlandırırdı.**






Böyüyəndə həkim olmaq arzusunda idi. Amma torpaqlarımızın düşmən tapdağı altında olması ona heç cür rahatlıq vermir, bu səbəbdən də hərbçi olmağa can atırdı. Elə ona görə də 2003-cü ildə daxil olduğu Azərbaycan Tibb Universitetində pediatr ixtisasını hərbi həkim ixtisasına dəyişir. 2008-ci ildə universiteti bitirəndən sonra Şəmkir rayonunda yerləşən N saylı hərbi hissədə leytenant rütbəsində xidmətə başlayır. 2009-cu ildən 2013-cü ilədək Füzuli rayonunda N saylı hərbi hissədə xidmətini davam etdirir. Daha sonra Cəlilabadda, sülhməramlılarla birgə 6 ay Əfqanıstanda, geri döndükdə isə Ağcabədi, Beyləqan, Qusar rayonlarında hərbi xidmətdə olub. 2016-cı ildə Aprel döyüşlərində iştirak edən Anar, öz vəzifəsini layiqincə yerinə yetirərək xeyli yaralını həyata qaytarıb. 2018-ci ilin dekabrından xidmətini Bakı ətrafında davam etdirib, N saylı hərbi hissənin tibb xidməti rəisi olub.

2020-ci il sentyabrın 26-da evə gələn Anar "təlimə gedirik" deyərək, yaxınlarıyla sağollaşıb evdən çıxır. Arada telefonla evdəkilərlə əlaqə saxlasa da, Dağ Tumas kəndi işğaldan azad olunanadək döyüşlərdə iştirak etdiyini heç kimə demir. Oktyabrın 29-u evlə əlaqə saxlayır, sevincək "Dağ Tuması işğaldan azad etdik" – deyir. Ancaq onda doğmaları bilir ki, Anar təlimlərə yox, cəbhəyə gedib...

Noyabrın 3-də Xocavənd istiqamətində ağır döyüşlər zamanı yaralanmış hərbçilərə yardım etməyə gedərkən mühasirəyə düşür. Düşmən sayca çox olsa da təslim olmur, sonadək döyüşərək qəhrəmancasına şəhid olur. Ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", Xocavənd, Füzuli və Cəbrayılın azad olunmasına görə medallarla təltif edilib. Məzarı II Fəxri xiyabandadır.

Anar şəhid olanda atası Kərəm kişi artıq iki il idi ki, dünyasını dəyişmişdi. Qohumlardan heç kim cürət edib bu acı xəbəri anası Gilasa, bacısı Gülnaza çatdıra bilmirdi. Amma qara xəbəri eşidən qohum-əqrəba onlara axışırdı... Yeganə oğlunu itirdiyini öyrənən ananın gözlərində dünya qaralır. Tək təskinliyi oğlunun torpaqlarımızın, doğma Dağ Tumasın işğaldan azadlığı uğrunda şəhidlik zirvəsinə ucalması idi.

### "Onda bildik ki, Anar ilk gündən müharibədə olub..."

**Bacısı Gülnaz xanım da** həkimdir. Qardaşı Anarı kövrək duyğularla belə xatırlayır:

- Sonuncu dəfə sentyabrın 26-ı evə gəldi. Dedi ki, təlimə gedəcək. Anar həmişə təlimlərdə olduğundan, ayrı-ayrı hərbi hissələrdə xidmət etdiyindən, onun gəlişi kimi, gedişi də tərəfimizdən adi qarşılandı. Ona görə də təlaş keçirmədik. Sən demə, narahat olmayaq deyə, bizi aldadırmış. Anar təlimlərə yox, birbaşa müharibəyə gedirmiş...

Oktyabrın 1-də ondan zəng gəldi, danışdıq. Yerini demədi. Hər şeyin yaxşı olduğunu bildirdi. Bakıda xidmət edirdi deyə, ağlımıza gəlmirdi ki, müharibəyə gedər. 2-3 gündən bir telefonla danışırdıq. Hər dəfə də vəziyyətinin yaxşı olduğunu deyir, müharibədə olduğunu hiss etdirmirdi. Həmişə də bizlə yüksək əhval-ruhiyyə ilə danışırdı.

Anar öz vəzifəsinə çox ciddi və məsuliyyətlə yanaşır, əsl hərbçi kimi sirr saxlayırdı. Oktyabrın 29-u yenə zəng gəldi. Danışığından hiss etdim ki, əhval-ruhiyyəsi çox yüksəkdir. Çox sevincli şəkildə "Dağ Tumas kəndini işğaldan azad etdik" dedi. Sevincindən bilmirdi nə etsin. Axı, ata yurdumuz düşmən tapdağından azad olunmuşdu. Anar öz sevincini ailə üzvləri ilə də bölüşdü. Bizə narahat olmamağımızı, vəziyyətinin yaxşı olduğunu dedi. Qələbə qazanacağımız günə az qaldığını bildirdi. Onun bu danışığından sonra bildik ki, Anar elə ilk gündən müharibədə olub, bir hərbçi və həkim kimi öhdəsinə düşən vəzifəni layiqincə yerinə yetirib.

Qardaşım noyabrın 3-də Xocavənd istiqamətində gedən döyüşlər zamanı mühasirəyə düşüb, təslim olmayaraq son nəfəsinədək vuruşub, qəhrəmancasına şəhid olub. O, həlak olanadək 37 gün qanlı döyüşlərdə iştirak edib, çoxlu sayda yaralıların həyatını xilas edib.

### "Anar nəslimizin 5-ci şəhidi oldu"

**Əmisi oğlu, şair Malik Əhmədoğlu:**

- Anar haqqında danışmaq mənim üçün çox çətindir. Ona qədər I Qarabağ müharibəsində qohumlarımızdan Əli Mahmudov, Söhrab Məmmədov, Məzahir Məmmədov, Vüqar Cəbrayılov şəhid olmuşdu. Anar nəslimizin 5-ci şəhididir. Söhrab və Məzahir Məmmədovlar onun əmisi oğlanları idi. Dağ Tumas kəndinin 29 şəhidi barədə kitab yazanda Anarın şəhid olduğu vaxt keçirdiyim ağrını təkrar yaşadım. Vətən müharibəsində Anar bu yolun şərəfli davamçılarından olduğunu öz əməlləri ilə təsdiq etdi. Bu şərəfli yolu keçməklə, bir həkim və hərbçi kimi öz elinə, obasına, millətinə nə qədər sədaqətli oğul olduğunu sübut etdi. Anar noyabrın 3-də şəhid olanda heç kim cürət edib, bu acı xəbəri anaya deyə bilmirdi. Heç kim istəmirdi ki, yeganə oğul övladın qara xəbərini Gilas anaya çatdırsın. Mən bu vəziyyətə dözə bilmədim, o ağır və üzüntülü dəqiqələrdə "Şəhidin gəlir, ana" adlı bir şeir yazıb, evə gələn qohumlar vasitəsi ilə anaya çatdıra bildim:

*Çıx evindən yola bax,*
*Şəhidin gəlir, ana.*
*Qəlbində od qala, bax,*
*Şəhidin gəlir, ana!*

*Qarabağa qan düşüb,*
*Can üstünə can düşüb.*
*Bəxtinə bu an düşüb,*
*Şəhidin gəlir, ana!*

*Yolu uzaqdır gözlə,*
*Yaran ağırdı közlə.*
*Ovudum hansı sözlə?-*
*Şəhidin gəlir, ana.*

*Müqəddəs yolu seçən,*
*Şanlı yaddaşa köçən,*
*Əziz canından keçən,*
*Şəhidin gəlir, ana!*

Anar el-obasına, millətinə, dövlətinə bağlı adam idi. O, vətənpərvər olduğu üçün ixtisasını dəyişib hərbçi olmağı seçmişdi. İstəmirdi torpaqlarımız yağı tapdağı altında qalsın. Əsl hərbi həkim kimi yetişərək Vətən qarşısında xidmətlərini göstərdi və şəhid oldu. Xalq öz şəhidini ehtiramla qarşıladı və II Fəxri xiyabanda son mənzilə yola saldı.

### "Sanki doğma qardaşımı itirmişdim..."

**Əsgər Zamiq Məmmədov:**

- Tibb xidməti kapitanı Anar Məmmədovla N saylı hərbi hissədə tanış olmuşam. Çox yaxşı insan idi. Tabeliyində olanlara həmişə xoş rəftar, qayğı göstərərdi. Mən həkimin əsgəri olduğum üçün çox vaxt bir yerdə olurduq. 3 gün hərbi hissədə qaldıq. Sonra Lələtəpə istiqamətində döyüşlərə qatıldıq. Bir gizirimiz minaya düşüb yaralanmışdı. Bir yerdə yaralı giziri təxliyə etməyə tələsdik. Bir az irəli getmişdik, anidən ətrafa sakitlik çökdü. Atəş səsləri kəsildi. Birdən anladıq ki, yolu səhv salıb düşmən olan istiqamətdə gedirik. Sən demə, düşmən bizim onlara tərəf gəldiyimizi görübmüş. Atəşi dayandırıblar ki, daha da yaxınlaşaq. Geri qayıtmağa başlamışdıq ki, bizi minaatanlardan atəşə tutdular. Xoşbəxtlikdən mərmilər bizdən yan ötdü. Birtəhər təhlükəli ərazidən uzaqlaşa bildik.




Yenidən döyüşə girəndə bir hərbçimizin halı pisləşdi. Həkim ona tibbi yardım göstərəndə mən irəli getdim ki, ətrafda müşahidə apara bilim. Bir də gördüm ki, yanıma mərmilər düşməyə başladı. Gəldiyim istiqamət arxa tərəfdən möhkəm atəşə tutuldu. Bir az irəli gedəndə başqa taborun əsgərləri ilə rastlaşdım. Onlar mənə gəldiyim istiqamətdən geri qayıtmamağı məsləhət gördülər. Dedilər ki, həmin istiqamətlə geri qayıtsan, səni vura bilərlər. Mən onlarla birgə getdim. Hərəkət etdiyim istiqamətdə mərmi yağışını görən həkim elə bilib ki, şəhid olmuşam. İki gün əsgərlərlə bir yerdə oldum. Bu iki gündə həkim məni, mən də həkimi axtardım və nəhayət görüşə bildik. Ac idim, mənə yemək verdi. Döyüş bölgəsindən geri qayıdıb, yenidən gedəndə məni özü ilə aparmadı. Dedi, yorulmusan, dincəl. Tək getdi. 3 gündən sonra mən də yola düşdüm. Amma yolda xəbər aldım ki, həkim şəhid olub. Çox pis oldum. Sanki doğma qardaşımı itirmişdim. Bu xəbərdən sonra bir müddət özümə gələ bilmədim...



### "Mühazirə zallarından birinə onun adını vermişik"

**Dosent Fərhad Meybəliyev:**

- Anar çox təvazökar kursant olub. Heç zaman kiminsə diqqətini cəlb etmək üçün canfəşanlıq göstərməzdi. Dərslərini yaxşı oxuyar, nizam-intizamı sevərdi. Şən, xoşrəftar idi, kimsənin qəlbinə dəyməzdi. Müəllimlər və kursant yoldaşları həmişə ondan razılıq edirdilər. Universiteti bitirəndən sonra da yaxşı hərbi həkim olduğundan onu daha çox cavabdehlik tələb olunan hərbi hissələrə xidmətə göndərdilər. İstər Aprel döyüşlərində, istərsə də Vətən müharibəsində özünü bir peşəkar hərbi həkim kimi təsdiq edə bildi. Mən tibb xidməti kapitanı Anar Məmmədovun müəllimi olaraq onunla və bütün şəhidlərimizlə qürur duyuram. Anar istəsəydi, yaxşı pediatr olar, öz həyatını başqa cür yaşayardı. Amma o, Vətənini, dövlətini sevdiyi üçün hərbi həkimliyi seçdi.

Xidmətdə olan müdavimlərimiz barədə söhbət düşəndə, biz həmişə Anarın adını fəxarətlə çəkmişik. Müdavim şəhidlərimizlə bağlı fakültəmizdə stend yaradılıb. Orada Anar Məmmədovun da adını əbədiləşdirmişik. Eləcə də mühazirə zallarından birinə onun adını vermişik. Digər şəhidlərimiz kimi, Anarın da xatirəsi daim tərəfimizdən ehtiramla yad edilir, onların keçdiyi qəhrəmanlıq yolu barədə kursantlarımıza vaxtaşırı məlumatlar verilir.

**Qabil ZİMİSTANOĞLU**






# Qocalıq yaşla gəlmir

## Yaxşıları görmək, yumor hissli olmaq, hər gün üçün şükürlü davranmaq psixoloji cavanlığın göstəriciləridir

**"Elmə artıq çoxdan məlumdur ki, "pasport yaşı" və "bioloji yaş" məfhumları arasında ümumilik böyük deyil. Aparılmış bir sıra elmi tədqiqatlar nəticəsində ömür uzunluğunun dinamikasında genetik amillərin, yaxud gəncləşdirmə üçün istifadə olunan müalicə üsullarının rolunun qənaətbəxş olduğu öz təsdiqini tapmayıb. Qocalmanın əsasında beyin amilinin dayanması barədə mülahizələr daha əsaslıdır və bu da bir çox faktlara əsaslanır". Bu fikirləri qəzetimizə ATU-nun Nevrologiya kafedrasının dosenti Temraz Nəbiyev söyləyib.**

Onun sözlərinə görə, XIX əsrin əvvəllərində 40 yaşdan yuxarı insanların artıq qocalma mərhələsinə keçdiyi hesab olunurdu. Sonrakı dövrlərdə elmi biliklərin, informasiyanın inkişafı, bəşəriyyətdə yaşayış amillərinin püxtələşməsi insan ömrünün uzanmasına şərait yaratdı və bu da yaş təsnifatında dəyişiklik etmək zəruriyyəti yaratdı: "Hazırda ÜST-ün yeni təyin etdiyi yaş hüdudları belədir: 25-44 – gənclik, 45-60 – orta, 61-75 – yaşlılıq, 76-90 – qocalıq, 90-dan yuxarı – uzunömürlülük dövrləri. Lakin 40 yaşda belə, xüsusən də 50-60 yaşlarda bədən və sifətin gənc görkəmini saxlamaq hər adama nəsib olmur. Yaşlandıqca, ilk növbədə insan psixologiyasının uyğunlaşmaları, həyata olan münasibət qəlbən və xarici görkəm cəhətdən cavan qalmağa mane olur. Bu amillər də bilavasitə xarici təzahür formalarına təsir göstərə bilir. Qocalmanın sürətinin məhz insan beynindən asılılığı hipotezinin sübut olunması üçün milyardlarla dolların xərclənməsi heç də əbəs yerə deyil və bu sahədə böyük nəticələr əldə edilib. Həyatın erkən mərhələlərində insan beyni bəşər aləmini və özünü dərk etmək məqsədilə biliklərin öyrənilməsi, təcrübələrin toplanması, vərdişlərin əldə edilməsi ilə müəyyən istiqamətlərdə fəaliyyətini davam etdirir. Davamlı olaraq bütün orqanizm bu prosesə qoşulur və imkan daxilində öz funksiyasını yerinə yetirir. Daha sonra elə bir məqam çatır ki, ətraf aləm insan üçün maraqsız olur, dərketmələr, öz kompetentliyini artırmaq üçün yeni öyrənmələrə həvəssizlik yaranır, ümidsizlik, təşəbbüssüzlük meydana çıxır. Artıq bunlar qocalığın başlamasına dələlət edir. Bununla da beyində və bədəndə fəaliyyətsizlik, uyğun olaraq degenerativ dəyişikliklər start götürür. Buradan da Allsheymer və ona uyğun xəstəliklər inkişaf edir".

Sözünə davam edən mütəxəssis deyib ki, psixoloji qocalmanın vaxtında aşkar edilməsi, ona qarşı profilaktik tədbirlərin görülməsi nəzərdə tutulmalıdır: "Psixoloji qocalmanın məqamlarına baxsaq, bu, zamana münasibətdə özünü büruzə verir. Yəni yaxşı vaxtların keçib getdiyi və bir daha dönməyəcəyi kimi fikirlərin meydana gəlməsi halları artıq qocalığın başlanğıcı sayımaq olar. Psixoloji olaraq yaşlı insan həmişə xatirələrlə, gənc isə planlarla yaşayır. Pessimizm – ümidsizlik hissi, planların olmaması, xatirələrin sonsuz təkrarlanması, fəaliyyətsizlik - bütün bunlar psixoloji qocalmanın göstəriciləri, bioloji qocalmanın isə katalizatorlarıdır.



Psixoloji qocalma əksərən öz-özünə təəssüflənməklə formalaşır. Məsələn, "mən gənc yaşlarımda çox güclüydüm, o vaxt etdiklərimi indi edə bilmərəm" və s. Dahilərin müdrikliyi və müasir elmi araşdırmalarla sübut olunub ki, minnətdarlıqla və xoşbəxt yaşayan insanlar uzunömürlü olmaqla yanaşı, zahirən də həmişə gözəl görünürlər. Psixikanın stabil olması gəncliyə dələlət edən amillərdəndir".

T.Nəbiyev bildirib ki, dəyişikliklərə sakit adaptasiya olmağı, çətinlikləri keçməyi, hər şeyi ürəyinə yaxın qəbul etməməyi, problemlərdə batıb-qalmamağı bacaran insanlar həmişə cavan qalmaq niyyətlidirlər: "Həyatsevər, gülərüz insanlarda üz qırışları başqa cür əmələ gəlir, qocalıq qırışları az olur, onların üzlərində həmişə mehribanlıq, cazibədarlıq təbəssümü diqqəti cəlb edir. Yaxşıları görmək, seçmək, yumor duyğulu olmaq, hər yaşanmış gün üçün şükürlü davranmaq psixoloji cavanlığın rəmzinə daxildir".

Dosent onu da məsləhət görür ki, təqvim yaşı ilə bağlı insana mənfi təsir edə biləcək heç nəyə baxmadan, iradlara məhəl qoymadan öz üzərində işləməklə yeniliklərə nail olmağa çalışmaq lazımdır: "Yaşlılar yaddaş pozğunluğuna meylli olduğundan onlar yaddaşlarını daim möhkəmlətməli və onu təsbit etməlidirlər. Bunun üçün isə əsas məqamları yazmaqla fiksə etməli, oxuyub təkrarlamaqla fiksasiyanı yaddaşın tutumunu artırmalıdırlar. Ən əsası isə, hər kəsə tövsiyəm o olardı ki, səhhətini qorumaqla sağlam həyat tərzi keçirsin və Tanrının ona verdiyi ömrü cavanlıq ruhu ilə sonadək yaşaya bilsin".

# Rezident kəskin revmatik qızdırma xəstəliyini müzakirəyə çıxarıb

**İyunun 21-də ATU-nun Rezidentura və magistratura şöbəsi universitetin Tədris Terapevtik Klinikası ilə birgə rezidentlər üçün növbəti seminar təşkil edib.**



Seminarı giriş sözü ilə açan Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov ənənəvi qaydada keçirilən seminarların rezidentlər üçün əhəmiyyətini vurğulayıb.
O, rezidentlərin elmi fəaliyyətinin universitet rəhbərliyinin diqqət mərkəzində olduğunu qeyd edərək, indiyədək keçirilən seminarların tibbin ən aktual sahələrini əhatə etdiyini söyləyib. N.Xəlilov təqdim olunan "Kəskin revmatik qızdırma" mövzusunda məruzənin də maraqla qarşılanacağına əminliyini bildirib.

Sonra III kurs rezident Rəşad Qasımov diqqəti slayd vasitəsilə adıçəkilən mövzuya yönəldib.
O, xəstəlik haqqında ümumi məlumat verərək bildirib ki, kəskin revmatik qızdırma uşaqlarda A qrupundan olan beta-hemolitik streptokokkların yaratdığı sistemik xəstəlikdir. Kəskin revmatik qızdırmanın yaranma səbəbləri, klinik diaqnostikası və müalicəsindən bəhs edən məruzəçi əlavə edib ki, oynaqlarda ağrı, şişkinlik, dəri altında kiçik, ağrısız düyünlərin əmələ gəlməsi, sinədə ağrı, ürəkdə küy, yorğunluq və s. əlamətlərlə özünü büruzə verir:
"Kəskin revmatik qızdırmanın diaqnostikası zamanı iltihabı aşkar etmək üçün oynaqlar müayinə olunur, bədən hərarəti ölçülür, dərialtı revmatik düyünlər yoxlanılır, ürəyin auskultasiyası və s. aparılır. Müalicə streptokokkların tamamilə məhv olunmasına, iltihab və residivlərin qarşısının alınmasna yönəldilir. Terapiya antibiotik və iltihabəleyhinə preparatlar vasitəsilə aparılır".
Seminarda iştirak edən II Uşaq xəstəlikləri kafedrasının assistenti, pediatr Nəzakət Həsənova mövzu ilə əlaqədar bildirib ki, kəskin revmatik qızdırma əsasən, streptokokk angina və ya skarlatina düzgün müalicə olunmadıqda yaranır. Xəstəliyə ən çox 5-15 yaş aralığında olan uşaqlarda rast gəlinir. Kəskin revmatik qızdırma ürək çatışmazlığı kimi geridönməz xəstəliklərə də gətirib çıxara bilər.
Tədris Terapevtik Klinikanın baş həkim Fəridə Hacıyeva, klinikanın Uşaq sağlamlığı və xəstəlikləri şöbəsinin müdiri, dosent Qoşqar İsmayılov və həkim-rezidentlərin iştirak etdiyi seminarın sonunda mövzu ilə bağlı çoxsaylı suallar məruzəçi tərəfindən cavablandırılıb.

# Terapevtik Klinikanın həkimi beynəlxalq mükafata layiq görülüb



**ATU-nun Tədris Terapevtik Klinikasının Hematologiya şöbəsinin həkimi Əlamdar Cəfərov iyunun 1-dən 6-dək Amerikanın Çikaqo şəhərində keçirilən "ASCO 2023" 59-cu konfransında iştirak edib.**

Qeyd edək ki, Ə.Cəfərov bu görüşə İnternational Development and Education Award (İDEA) proqramının təşkilatçılığı və Amerika Klinik Onkologiya Cəmiyyətinin (ASCO) rəsmi dəvəti ilə qatılıb. O həmçinin bu proqram çərçivəsində ABŞ-ın Ohayo ştatında hematologiya üzrə qısamüddətli klinik təcrübə də keçib.
ATU-nun əməkdaşı konfrans çərçivəsində Amerika Klinik Onkologiya Cəmiyyətinin və İDEA proqramının təşkil etdiyi Beynəlxalq Təhsil və İnkişaf mükafatına layiq görülüb.
"2023 Grant and Award Recipient" jurnalında İDEA proqramının 33 ölkə üzrə seçilən qalibləri sırasında azərbaycanlı həkim haqqında məlumat dərc olunub və ona CCF (Conquer Cancer Foundation) və Ohio Health and Riverside Methodist xəstəxanası tərəfindən sertifikat təqdim edilib.
Məlumat üçün bildirək ki, 1964-cü ildə yaradılan ASCO, hər il müxtəlif görüşlər təşkil edərək həm Amerika, həm də dünyada onkologiya sahəsində çalışan mütəxəssisləri bir araya gətirir. Belə ki, hər ilin iyun ayında ABŞ-ın Çikaqo şəhərində dünya onkoloqları üçün illik görüş keçirilir.
Hər il bu tədbirdə dünyanın nüfuzlu elm adamları, onkoloqları apardıqları tədqiqatların nəticələrini paylaşır və bu sahədə elmi yeniliklər barədə məlumat verilir. Bu konfransa canlı olaraq minlərlə həkim qatılır və bundan başqa, dünyanın bir çox yerlərində belə tədbirlər keçirilir. Məqsəd dünyada bu sahədəki yenilikləri izləyərək, xərçəngə qarşı effektiv mübarizə aparmaqdır.
2016-cı ildən başlayaraq bu nüfuzlu konfransa Azərbaycandan da həkimlər dəvət olunur.

# ATU əməkdaşının iştirak etdiyi meqalayihəyə maraq getdikcə yüksəlir




**Azərbaycan Tibb Universitetinin Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının dosenti Nigar Sultanova 1999-cu ildə müasir kraniofasial antropometriyanın banisi, professor L.G.Farkas (Kanada) tərəfindən "International anthropometric study of facial morphology in various ethnic groups/race" layihəsində iştirak etməyə dəvət olunub. Nəticədə, dünyada üzun antropometrik parametrlərinin ən böyük müqayisəli məlumat bazalarından biri yaradılıb.**

Bu meqalayihənin nəticələri 2005-ci ildə ən nüfuzlu tibb jurnallarından biri olan "The journal of craniofacial surgery"də 25 səhifə həcmində dərc edilib.
PUBMED-ə və Google Scholar-a görə, bu elmi işin "istinad indeksi" 900-dən çoxdur. Qeyd etmək lazımdır ki, nəşrindən 20 ilə yaxın vaxt keçsə də, bu məqaləyə maraq və istinad gündən-günə artır. Researchgate-in məlumatına görə, hər həftə dünyanın fərqli ölkələrindən təxminən 50-70 alim bu məqaləni oxuyur və oxuyanların sayı 16.000 nəfərə çatıb. Həmçinin tədqiqat marağı balı da yüksəlir və artıq 431.1 olub.
Məqalədə 25 etnik qrupda kəllə-üz kompleksinin seçilmiş antropometrik göstəricilərinin normal dəyərlərinin diapazonunun təyini və ağdərili Şimali amerikalılar ilə başqa etnik qruplar arasında ən mühüm fərqi göstərən kəllə-üz nahiyələrinin təyin edilməsi aparılıb.
Tədqiqat işi dünyanın 25 ölkəsini əhatə edən beş bölgəsindən - Avropa, Yaxın Şərq, Asiya, Afrika və Şimali Amerikadan olan 1470 sağlam gənci əhatə edib. Qafqazoid qrupunu Avropanın 13 ölkəsindən - Almaniya, Bolqarıstan, Çexiya, İtaliya, Macarıstan, Polşa, Portuqaliya, Rusiya, Xorvatiya, Slovakiya, Sloveniya, Yunanıstan, o cümlədən Azərbaycandan olanlar təmsil edirdilər.
Kəllə-üz kompleksinin morfoloji xüsusiyyətləri 14 antropometrik göstərici üzərində öyrənilib, onlardan 10-nu üzün neoklassik qanunauyğunluqları təşkil edirdi.
Bu elmi iş təkcə antropoloqların, üz-çənə və plastik cərrahları, məhkəmə-tibb ekspertləri, patoloqlar, anatomlar, stomatoloqlar və tarixçilərin deyil, həm də son zamanlar ən nüfuzlu texnoloji universitetlərin mühəndis və fiziklərinin marağına səbəb olur. Belə ki, müxtəlif elmlərin qovuşmasında beynəlxalq layihələr çərçivəsində yerinə yetirilən elmi işlərin yüksək sitat indeksi şansı daha çoxdur. Universitet əməkdaşlarının yüksək istinad indeksi bu təhsil ocağının reytinqini artırır.

# Müdriklik zirvəsinə aparan illər...

**Bu günlərdə ömrünün 30 ildən çoxunu elm-təhsilə və eləcə də onun idarəçiliyinə həsr edən, ATU-nun Tibbi və bioloji fizika kafedrasının müdiri, dosent Şahin Bayramovun 60 yaşı tamam oldu. Şahin müəllim indiyə qədər əmək fəaliyyəti dövründə universitetin ictimai-mədəni həyatında fəal iştirak edən, sağlam düşüncəli mövqeyi ilə daim örnək olan qabaqcıl müəllimlərimizdəndir. O, bir müəllim kimi öz dürüstlüyü və peşəkarlığı ilə universitetimizin pedaqoji və tələbə ictimaiyyəti arasında böyük hörmət və nüfuz qazanıb.**



Bayramov Şahin Qənbər oğlu 1963-cü il iyunun 26-da Qərbi Azərbaycanın Göyçə mahalının Basarkeçər (indiki Vardenis) rayonunun Nərimanlı kəndində ziyalı ailəsində anadan olub. 1981-ci ildə Nərimanlı kənd orta məktəbini bitirib və Azərbaycan Dövlət Universitetinin Fizika fakültəsinə daxil olub. O, 1986-cı ildə həmin universiteti fərqlənmə diplomu ilə bitirərək təyinatla Azərbaycan ET Əkinçilik İnstitutuna, 1987-ci ildə isə SSRİ EA Biofizika İnstitutuna staj keçməyə göndərilib və 1988-ci ildə bu institutda aspiranturaya daxil olaraq, 1991-ci ildə aspiranturanı "biofizika" ixtisası üzrə bitirib.

1992-ci ildə namizədlik dissertasiyasını müdafiə edərək "fizika-riyaziyyat elmləri namizədi" alimlik dərəcəsi alan Ş.Bayramov Azərbaycan Tibb Universitetinin tələbələri üçün bir dərslik, iki dərs vəsaiti və 56 elmi məqalənin müəllifidir.

1992-ci ildən taleyini Azərbaycan Tibb Universitetinə bağlayan Şahin müəllim Tibbi və bioloji fizika kafedrasında bu illər ərzində assistent, baş müəllim və dosent vəzifələrinədək yüksəlib. O, kafedrada müəllimlik fəaliyyəti ilə yanaşı, 2003-2009-cu illərdə Tibbi profilaktika, 2009-2011-ci illərdə isə I Müalicə-pofilaktika fakültəsində dekan müavini vəzifəsində işləyib.

Ş.Bayramov 2011-2019-cu illərdə universitetdə ilk dəfə olaraq elektron imtahan sisteminin yaradılmasında bilavasitə iştirak edərək, ATU-da İmtahan Mərkəzinin ilk qurucu direktoru vəzifəsində işləyib. 2019-cu ildə Tibbi və bioloji fizika kafedrasının müdiri vəzifəsinə seçilib, hazırda həmin vəzifəni icra edir.

Ciddi və tələbkar rəhbər, ədalətli insan, dəyərli kolleqa və mütəxəssis Şahin müəllimi 60 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı və elmi-pedaqoji işlərində yeni-yeni nailiyyətlər arzulayırıq.

**Tibbi və bioloji fizika kafedrasının əməkdaşları**

**Tələbə dekan**

# Hər şey hər yerdə və bir anda

**İlk baxışda böyük anlam ifadə etməyən bu cümlə sizə qəribə gələ bilər. Amma mənim üçün "bütün mənliyimi ifadə edir" - deyə bilərəm.**

"Oskar-2023"-ün ən yaxşı film kateqoriyasının qalibi "Everything everywhere all at once" filmindən ilhamlandım. "İlhamlanmaq" – bu, özümü ifadə etmək üçün seçəcəyim ən yaxşı ikinci söz ola bilər, birincisi isə yəqin ki, "analiz etmək" olardı. Özümü tanımağa başlayandan ilk dəfə görüşdüyüm adamlar içərisində əvvəlcə qıraqda sakit dayanıb insanları analiz edən, sonra onların xasiyyətlərinə uyğun reaksiyalar verən biri olmuşam. Və analiz etdiyim insanların yaxşı xasiyyətləri həmişə mənə ilham verib. Buna ən böyük nümunə olaraq atamı misal göstərə bilərəm. O, kiçik Fidanın gözündə hər şeyi bilən biri idi. Çünki bütün suallarımın cavabı onda idi. Sonra suallarımı cavablamamağa, əksinə, mənə suallar verməyə başladı. Beləcə mənə biliyin cavab taparaq yox, sual verərək öyrənildiyini göstərdi. Cavablar sualların içindəymiş hər zaman. Hazır, mövzu açılmışkən digər bir ilham mənbəyim - anamdan da bir-iki söz deyim. Anamın hər şeyə baxmayaraq bizi oxutmağa çalışması, təhsili hər şeydən üstün tutması mənim elmə olan baxış bucağımı dəyişdirdi. Onlara buna görə təşəkkür etmək istəyirəm.

Özümə qayıtsaq, tibb üzrə təhsil alan əksəriyyət kimi, uşaqlıqdan həkim olmaq istəmişəm. Amma bir fərqlə, mən təkcə həkim olmaq istəmirdim. Mən həm də rəssam, yazıçı, fizik, filosof, aktyor, siyasətçi və daha nələr, nələr olmaq istəyirdim. Bu istəyim indi azalıbmı? Yox, eyni ilə qalmaqdadır. Mən hər şey olmaq istəyirəm, hər yerdə və eyni anda. Amma hər şeydən əvvəl mən yaxşı bir insan olmaq istəyirdim. Ona görə də uşaqlıqdan oturdum və düşündüm, insanlara ən faydalı kim ola bilərəm? Cavabım həkim oldu və budur, burdayam. Amma bu cavabda məni narahat edən nəsə var idi. Böyüdükcə sanki həkim olsam, ən yaxşı bacardığım şeyi - "fərdi deyil, toplumu düşünməyi" unudacağımdan narahat olurdum. Təsadüfə baxın ki, mən heç ağlımda belə olmayan bir fakültəyə qəbul oldum - İctimai səhiyyə. Qəbul olduqdan sonra fakültə haqda araşdıranda gördüm ki, əslində, düz yerdəyəm. Mən burda həm həkim olacam, həm də istədiyim digər hər şey. Artıq tək-tək fərdləri deyil, bir cəmiyyəti analiz edəcəm. Bu ki, mənim ən sevdiyim işdir.

Universitetə qəbul olduqdan sonra da mənim bu xasiyyətim dəyişmədi. Hələ onlayn təhsil zamanı yeni insanları tanımağa, universitetin klublarına qoşulmağa başlamışdım. Bu mənim verdiyim ən düzgün qərarlardan biri idi. Çünki bir daha başa düşdüm ki, sadəcə dərs oxumaqla, universitetə gəlib-getməklə yaxşı mütəxəssis ola bilməzsən. Yaxşı mütəxəssis gərək hərtərəfli olsun. Avropa-Amerika təhsil sisteminə baxsaq, orada dərsdənkənar fəaliyyətlərə böyük önəm verildiyini görə bilərik. Məncə,




bizdə də bu belə olmalıdır. Universitetimizdə tələbələrin dərsdənkənar vaxtlarını səmərəli keçirmələri üçün bir sıra qurumlar var. Bunlardan biri də mənim də daxil olduğum Tələbə Gənclər Təşkilatıdır ki, burda tələbələrimiz tam təmənnasız digər yoldaşlarının vaxtlarını səmərəli keçirə bilməsi üçün öz vaxtlarını sərf edirlər. Universitetimizdə bu kimi işlərin daha nüfuzlu hala gətirilməsini, bu məsələlərə daha ciddi yanaşılmasını istərdim.

**Fidan Rəhmanlı,**
*İctimai səhiyyə fakültəsinin III kurs tələbəsi, Tələbə Gənclər Təşkilatının klublar üzrə sədr müavini*

# Sağlamlığımızı qoruyan mobil tətbiqlər

**Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən (İSİM) hər yerdə, hər zaman müxtəlif aspektləri əhatə edən peşəkar tibbi məsləhət, habelə tövsiyələrin alınmasını vətəndaşlar üçün daha rahat və çevik edən mobil tətbiqləri istifadəyə verilib.**

Hazırda "İlk Yardım tətbiqi", "Ürəyinizi qoruyun", "Şəkərli diabet", "Sağlam qida", "Tütündən imtina et", "Saglamlıq" və digər mobil əlavələri yükləmək mümkündür.

Tətbiqləri telefonunuza və ya planşetinizə yükləyərək, təcili tibbi yardım xidmətləri və ya digər təcili yardım qurumları tərəfindən lazım olduqda və ya təlimat verildikdə, ilk yardım tədbirlərini həyata keçirmək və ya aparılan tədbirlərə yardımçı olmaq üçün tematik videolara və sadə təlimatlara çıxış imkanı əldə etmiş olursunuz. Eyni zamanda, düzgün qida rasionunu tərtib etməyə, tütünçəkmənin zərərləri və tütünçəkmədən imtina metodikaları, ürək-damar xəstəliklərinin əsas risk faktorları, streslə mübarizə metodları və digər faydalı materiallarla tanış olmaq mümkündür. Həmçinin "VideoDoktor" mobil tətbiqi ev şəraitində yüksək keyfiyyətli tibbi yardım əldə etməyə, peşəkar tibbi məsləhətlər almağa imkan verir. İstifadəsi olduqca rahat olan "MD Reference" mobil tətbiqin əsas funksiyası həkim və digər səhiyyə işçilərinin tibbin ən son yeniliklərindən xəbərdar olmalarına kömək etməsidir.

Mobil əlavələri "Google Play Market" və "App Store"dan yükləmək mümkündür. Onlar Android və İOS sistemləri tərəfindən dəstəklənir.

**Azərbaycan Tibb Universitetinə ağır itki üz verib. Tanınmış alim, I Uşaq xəstəlikləri kafedrasının müdiri, professor Səfixan Şamil oğlu Həsənov vəfat edib.**

# Tanınmış alim vəfat edib



S.Həsənov 1956-cı il yanvarın 4-də Qərbi Azərbaycanın Qafan rayonunun Gərd kəndində anadan olub. 1979-cu ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun Pediatriya fakültəsini fərqlənmə diplomu ilə bitirib. O, internaturadan sonra 1980-83-cü illərdə Zərdab rayonunda sahə həkimi işləyib. 1985-ci ildə Tibb İnstitutunun II Uşaq xəstəlikləri kafedrası nəzdində kliniki ordinaturanı bitirib və həmin ildən 1989-cu ilə kimi kafedrada baş laborant vəzifəsində çalışıb.

S.Həsənov 1988-ci ildə namizədlik, 1996-cı ildə isə doktorluq dissertasiyalarını müdafiə edib. O, 1989-cu ildə müsabiqə yolu ilə Neonatologiya kafedrasına assistent, 1999-cu ildə isə həmin kafedranın professoru vəzifəsinə seçilib. 2010-2016-cı illərdə Neonatologiya kafedrasının müdiri olub. 2017-ci ildən ömrünün sonunadək I Uşaq xəstəlikləri kafedrasının müdiri vəzifəsində çalışıb. 2005-2012-ci illərdə K.Y.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutunun elmi işlər üzrə direktor müavini vəzifəsini tutub.

S.Həsənov 250-dən artıq elmi məqalənin, o cümlədən 10 metodik tövsiyənin, 3 tədris metodik, 3 dərs vəsaitinin, 4 səmərələşdirici təklifin, 1 ixtiranın müəllifidir. Onun elmi işlərinin bir çoxu xaricdə və ölkədə nüfuzlu elmi jurnallarda dərc olunub. Səfixan müəllimin rəhbərliyi ilə 13 nəfər t.ü.f.d. və 2 nəfər t.ü.e.d. dissertasiyası yerinə yetirərək müdafiə edib.

Professor S.Həsənov ATU-nun I MPF, Elmi Tədqiqat Pediatriya İnstitutunun elmi şuralarının və Dissertasiya Şurasının üzvü, universitetimizin "Pediatriya" ixtisası üzrə Problem Komissiyasının və Azərbaycan Neonatoloqlar Birliyinin sədri idi.

Fəaliyyəti dövründə qayğıkeş, əməksevər müəllim və həkim kimi doğma kollektivin, eləcə də tələbələrin rəğbətini qazanmış Səfixan müəllimin xatirəsi doğmalarının və onu tanıyanların qəlbində yaşayacaq.

**Allah rəhmət eləsin!**

**ATU-nun rektorluğu və I Uşaq xəstəlikləri kafedrasının kollektivi**

**Allah rəhmət eləsin!**

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları Xarici dillər kafedrasının müdiri, professor Zemfira Məmmədovaya qardaşı

**Əliheydər Məmmədovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

ETM-in kollektivi iş yoldaşları Sevinc Şahməmmədovaya həyat yoldaşı, I Uşaq xəstəlikləri kafedrasının müdiri, professor

**Səfixan Həsənovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

ETM-in kollektivi iş yoldaşları Natiqə Nağıyevaya qardaşı

**Zəfər Quliyevun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Etibarsız sayılır**

Məmmədov Elbrus Barat oğlu (qrup 419A1b); Lalaei Elina Gholamreza qızı (qrup 422İ2a); Roghaiyeh Mohammadi Ali qızının (qrup 119A4a) tələbə bileti, Mahmudov Babək Rəfail oğlunun (qrup 201B)tələbə bileti və müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Əlyazmalar geri qaytarılmır

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun Nəşriyyat-Poliqrafiya şöbəsində çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0012
Sayı 800